| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 26.10.1998 |
| QEYDİYYAT NÖMRƏSİ | 3 |
| ADI | “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-1998, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 611) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 170.000.000<br>120.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin onuncu abzasının müddəalarını nəzərə alaraq xüsusi razılıq (lisenziya) tələb olunan istehsalat və məişət tullantıları ilə bağlı fəaliyyət növləri və bu fəaliyyət növləri üçün xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 12-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi qaydalarını müəyyən etsin; [1]

həmin Qanunun 13-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş istehsalat və məişət tullantılarının pasportlaşdırılması qaydasını müəyyən etsin;

həmin Qanunun 19-cu maddəsinin ikinci hissəsinin müddəalarını nəzərə alaraq, idxal, ixrac və alqı-satqı obyekti olan istehsalat və məişət tullantılarının sertifikatlaşdırılması qaydasını müəyyən etsin;

həmin Qanunun 21-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş istehsalat və məişət tullantılarının dövlət kadastrının aparılması qaydasını müəyyən etsin;

bu fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:* [2]

*2.1. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun5-ci maddəsinin birinci hissəsində, 6-cı maddəsinin üçüncü hissəsində, 7-ci maddəsinin dördüncü hissəsində və 12-2-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;* [3]

*2.1-1. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin beşinci abzasında (birinci halda), 11-ci maddəsinin dördüncü hissəsində, 12-3-cü maddəsinin üçüncü hissəsində, 12-4-cü maddəsinin birinci hissəsində, 12-5-ci maddəsində, 13-cü maddəsinin birinci hissəsində, 14-cü maddəsinin üçüncü hissəsində, 19-cu və 20-ci maddələrinin birinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;* [4]

*2.1-2. həmin Qanunun 12-2-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;* [5]

*2.2. həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur.* [6]

*2.3. həmin Qanunun 5-ci maddəsinin beşinci abzasında, 10-cu maddəsinin ikinci və altıncı hissələrində və 12-3-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;*

*2.4. həmin Qanunun 6-cı maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;* [7]

*2.5. həmin Qanunun 7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirirlər;*

*2.6. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin beşinci (ikinci halda) və yeddinci abzaslarında, 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;*

*2.7. həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*2.8. həmin Qanunun 11-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə və nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*2.9. həmin Qanunun 6-cı maddəsinin ikinci hissəsində, 11-ci maddəsinin beşinci hissəsində və 23-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*2.10. həmin Qanunun 12-4-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi~~, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi~~ və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər;* [8]

*2.11. həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirirlər;*

*2.12. həmin Qanunun 7-ci maddəsinin dördüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.*[9]

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 oktyabr 1998-ci il
3

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 oktyabr 2003-cü il tarixli **941** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 546** )
2. 02 fevral 2007-ci il tarixli **521** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87** )
3. 14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**)
4. 06 iyul 2012-ci il tarixli **672** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 681** )
5. 14 yanvar 2016-cı il tarixli **729** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 20 yanvar 2016-cı il, 13 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 51)**
6. 16 yanvar 2019-cu il tarixli **477** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 yanvar 2019-cu il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 67)**
7. 7 iyul 2020-ci il tarixli **1089** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 9 iyul 2020-ci il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 869)**
8. 13 iyul 2021-ci il tarixli **1392** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 14 iyul 2021-ci il, 145 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 726)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 06 iyul 2012-ci il tarixli **672** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 681** ) ilə 1-ci hissəsinin beşinci bəndində "**üçüncü**" sözü "**dördüncü**" sözü ilə əvəz edilmişdir.

[2] 14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə 2-ci bəndin ikinci abzasından « **18-ci maddəsinin dördüncü hissəsində,** » sözləri çıxarılmışdır.

23 oktyabr 2003-cü il tarixli **941** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 546** ) ilə 2-ci bəndin altıncı abzasından "**Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi** " sözləri çıxarılmışdır.

2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə 2-ci bəndin altıncı abzasından "**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi**" sözləri "**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti** " sözləri ilə əvəz edilmişdir.

23 oktyabr 2003-cü il tarixli **941** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 546** ) ilə 2-ci bəndin üçüncü, dördüncü, beşinci, altıncı və yeddinci abzaslarında "**Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi** " sözləri "**Ekologiya və Təbii Sərvətlər Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə 2-ci bəndə səkkizinci abzas əlavə edilmişdir.

14 yanvar 2016-cı il tarixli **729** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 20 yanvar 2016-cı il, 13, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 51)** ilə 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

~~«İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin dördüncü hissəsində, 13-cü maddəsinin birinci hissəsində, 18-ci maddəsinin dördüncü hissəsində, 19-cu maddəsinin birinci hissəsində və 20-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~həmin Qanunun 5-ci maddəsinin beşinci abzasından, 7-ci maddəsində və 10-cu maddəsinin ikinci və altıncı hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Səhiyyə Nazirliyi həyata keçirirlər;~~

~~həmin Qanunun 6-cı maddəsinin ikinci hissəsində, 8-ci maddəsinin birinci hissəsinin beşinci və yeddinci abzaslarında və 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;~~

~~həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirir;~~

~~həmin Qanunun 11-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;~~

~~həmin Qanunun 11-ci maddəsinin beşinci hissəsində və 23-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.~~

~~həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.~~

[3] 16 yanvar 2019-cu il tarixli **477** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 yanvar 2019-cu il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 67**) ilə yeni məzmunda 2.1-ci bənd əlavə edilmişdir.

7 iyul 2020-ci il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 9 iyul 2020-ci il, 131**) ilə 2.1-ci bəndə "**Qanununun**" sözündən sonra "**7-ci maddəsinin dördüncü hissəsində və** " sözləri əlavə edilmişdir.

13 iyul 2021-ci il tarixli **1392** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 14 iyul 2021-ci il, 145 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 726**) ilə 2.1-ci bəndə "**Qanununun**" sözündən sonra "**5-ci maddəsinin birinci hissəsində, 6-cı maddəsinin üçüncü hissəsində,**" sözləri əlavə edilmişdir.

[4] 16 yanvar 2019-cu il tarixli **477** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 yanvar 2019-cu il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 67**) ilə 2.1-ci bəndi 2.1-1-ci bənd hesab edilmişdir, həmin bənddə "**İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun** " sözləri "**həmin Qanunun**" sözləri ilə əvəz edilmişdir.

[5] 16 yanvar 2019-cu il tarixli **477** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 yanvar 2019-cu il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 67**) ilə yeni məzmunda 2.1-2-ci bənd əlavə edilmişdir.

[6] 13 iyul 2021-ci il tarixli **1392** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 14 iyul 2021-ci il, 145 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 726**) ilə 2.2-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*2.2. həmin Qanunun 14-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş səlahiyyətli orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;*~~

[7] 13 iyul 2021-ci il tarixli **1392** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 14 iyul 2021-ci il, 145 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 726**) ilə 2.4-cü bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*2.4. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*~~

[8] 13 iyul 2021-ci il tarixli **1392** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 14 iyul 2021-ci il, 145 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 726**) ilə 2.10-cu bənddən "**, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri çıxarılmışdır.

[9] 7 iyul 2020-ci il tarixli **1089** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 9 iyul 2020-ci il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 869**) ilə 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 2.12-ci bənd əlavə edilmişdir.